AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüqüqünda*

**AZADI BEHNAM MƏHƏMMƏD OĞLU**

# İRAN İSLAM RESPUBLİKASINDA YOXSULLUQ PROBLEMİ VƏ ONUN HƏLLİ YOLLARI
***(ƏRDƏBİL ƏYALƏTİNİN TİMSALINDA)***

**5310. 01 – Dünya iqtisadiyyatı**
**5307. 01 – İqtisadi nəzəriyyə**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin "İqtisadiyyat və idarəetmə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, prof. **R.Ə. NƏBİYEV**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, **D.Ə.Vəliyev**

iqtisad üzrə fəlsəfə doktoru **M.R.Rəsulova**

**Aparıcı müəssisə:** AMEA İqtisadiyyat İnstitutu (İqtisadi nəzəriyyə və iqtisadi fikir tarixi şöbəsi)

Müdafiə "21" "iyun" 2013-cü il saat $14^{00}$ -da Bakı Dövlət Universitetinin nəzdindəki B/FD.02.016 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı şəh., Z.Xəlilov küç., 23. Bakı Dövlət Universiteti

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar

Avtoreferat "20 may" 2013-cü il tarixində göndərilmişdir.

**B/FD.02.016 Dissertasiya**
**Şurasının elmi katibi** **r.e.d., prof. N.Q.Əhmədov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

***Problemin aktuallığı***. Yoxsulluq sosial – iqtisadi proses olub, hər bir ölkənin iqtisadi inkişaf dinamikasına uyğun şəkildə formalaşır və müxtəlif tarixi mərhələlərdə, ictimai – siyasi və iqtisadi quruluşun xüsusiyyətlərinə uyğun olaraq intensivliyinə, səviyyəsinə və həlli yollarına görə fərqlənir.

Yoxsulluq müasir cəmiyyətin ən kəskin sosial problemlərindən biridir. Yoxsulluq ölkədə orta gəlir və ya istehlak səviyyəsindən, həmçinin gəlir və istehlakın paylanmasından asılıdır. Konkret cəmiyyətdə və ya ölkədə heç olmazsa bir vətəndaşın həmin cəmiyyətin standartlarına uyğun qəbul olunmuş minimumdan aşağı yaşadığı təqdirdə yoxsulluqdan danışmaq olar. Yoxsulluq probleminin həlli qloballaşan iqtisadiyyatda bir sıra dünyəvi tədbirlərin həyata keçirilməsi və iqtisadi resurslardan istifadə edilməsi yolu ilə baş verir. Lakin yoxsulluq probleminin həlli ümumi dünyəvi tədbirlərlə yanaşı, hər bir ölkənin iqtisadi potensialından istifadə etməklə həmin tədbirlərin reallaşma mexanizmlərinin təşkilindən və ölkədaxili iqtisadi siyasətin regional xüsusiyyətlərindən asılıdır.

Yoxsulluq dünya iqtisadi sistemində, müxtəlif beynəlxalq iqtisadi qruplarda və humanitar yardım məqsədləri üçün aparılan tədbirlərin əsaslandırılmasında müxtəlif meyarlardan və göstəricilərdən istifadə olunur və qiymətləndirilir.

Bir çox hallarda yoxsulluğu yaşayışın təmin edilməsi üçün maddi vəsaitin çatışmaması kimi müəyyən edirllər, yəni yoxsulluq yalnız iqtisadi məhrumiyyət baxımından qiymətləndirilir. Maddi vəziyyətin çatışmazlığı və yaxud olmaması həqiqətən yoxsulluğun səbəblərindən biridir. Lakin davamlı insan inkişafı baxımından maddi vəsaitin çatışmaması yoxsulluğun yalnız bir səbəbi və bir təzahürüdür. Əgər davamlı insan inkişafı onun imkanlarının, seçiminin genişləndirilməsi deməkdirsə, müasir anlama görə və beynəlxalq təşkilatların təklif etdiyi təriflərə görə, yoxsulluq, eyni zamanda, uzun, sağlam, yaradıcı və ləyaqətli həyat sürməkdən, həyat şəraitindən bəhrələnməkdən, sərbəstlik və azadlıqlardan məhrum olmaq deməkdir. Buna görə, yoxsulluq problemin tədqiqi və bu prosesin qarşısının alınması yollarını müəyyən edərkən yoxsulluğun müxtəlif təzahürlərini təhlil etmək çox vacibdir.

Hal-hazırda yoxsulluğun aradan qaldırılması proqramların hazırlanması və sosial təminat sistemlərinin formalaşdırılması həm müxtəlif ölkələrin, həm də beynəlxalq təşkilatların əsas vəzifələrindən birinə çevrilmişdir.

Yoxsulluq və ona qarşı mübarizə problemi İİR-də və iqtisadi inkişaf baxımından nisbətən geri qalan, təbii sərvətlərin az olduğu və iqtisadi inkişaf mərkəzlərindən uzaqda yerləşən Ərdəbil vilayətində də öz həllini gözləyən sosial problemlər sırasındadır.

Problemin mahiyyətini və eləcə də dövlətin həyata keçirdiyi sosial siyasətin mövcud vəziyyətini nəzərə alaraq qeyd etmək lazımdır ki, İran İslam Respublikasında, ələlxüsus Ərdəbil vilayətində yoxsulluğun aradan qaldırılması və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına dair tədqiqat işi aktualdır, eyni zamanda nəzəri və praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edir.

***Problemin işlənmə dərəcəsi.*** Yoxsulluq, işsizlik, məşğulluq ilə bağlı problemlər iqtisadçı alimlərin və sosioloqların daim diqqət mərkəzində olmuşdur və hazırkı qloballaşan dünyada da öz aktuallığını itirməmişdir.Azərbaycanın müasir iqtisadçı alimlərindən Ş.Muradov, U.Ələkbərov, Ə.Nuriyev, Ə.Nağıyev, Z.Qurbanova, S.Mehbalıyev, E.Qasımov və başqaları[1] öz əsərlərində qeyd edilən problemin müxtəlif aspektlərini tədqiq etmişlər.

Dünya iqtisadi və fəlsəfi fikrinin görkəmli nümayəndələri hesab olunan K.Marks, T.Maltus, A.Marşall, C.Mill, C.Keyns və digərləri yoxsulluğun yaranması səbəbləri, onun mahiyyəti, aradan qaldırılması yolları və s. kimi problemləri hərtərəfli və dərindən öyrənmiş və nəticədə

---

[1] Əliyev A., Şəkərəliyev A. Bazar iqtisadiyyatına keçid. Dövlətin iqtisadi siyasəti. BDU, Bakı, 2002. Qasımov E.A. Sosial-iqtisadi transformasiya və məşğulluq problemləri. // "Azərbaycan iqtisadiyyatı: problemlər, perspektivlər". B., Elm, 2002. QuIiyev A., Qasımov N. Azərbaycanda əhalinin həyat səviyyəsinin yuksəldilməsinin aktual problemləri. Bakı. «Seda», 2000. Muradov Ş.M. Insan potensialı: əsas meyllər, reallıqlar. Problemlər. Bakı: Elm. 2004. Muradov Ş.M. Müasir mərhələdə əhalinin məşqulluq quruluşunun formalaşması və təkmilləşdirilməsi problemləri. AMEA İqtisad in-tu, B., 2006. Nəbiyev R.Ə. Azərbaycanın keçid dövründə kommersiya hesabının nəzəri və praktiki problemləri. B., Elm, 2000. Nuriyev Ə. Azərbaycan iqtisadiyyatının sürətlə və sosial yönümdə inkişaf xüsusiyyətləri. // "Azərbaycan iqtisadiyyatı yüksəliş yolunda". B., 2003. Paşayev T.Ə. Qaçqın və köçkünlər: problemlər, vəzifələr. // "Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri" (məqalələr toplusu). IV buraxılış. B., Elm, 2000. Səmədzadə Ziyad. Dunya iqtisadiyyatı. Çin iqtisadi möcuzəsi. Bakı, Gənclik, 2001, 317s. Şahbazov K.A. Antiböhranlı idarəetmə: müflisləşmə, iflas və sanasiya. "İqtisad universiteti", Bakı, 1997. 121 s. və b.

yoxsulluq kimi sosial bəlanı izah edən bir sıra nəzəriyyələr və cərəyanlar meydana gəlmişdir.

Rus iqtisadşı alimlərindən Rus iqtisadşı alimlərindən Y.Buzilov, V.Boyen, V.Moşenkov, F.Qanzalis, B.Ulin, A.Reveykin, A.Qolubov, Averin A.N., Genkin B.M., Golosenko İ.A., F.Qanzalis, Zaslavskaya T.İ. Levada Y., Yaroşenko Y.S.[1] oz tədqiqatlarında yoxsulluq probleminin həlli yollarını göstərməyə çalışmışlar.

Yoxsulluq səviyyəsinin kəmiyyətcə ölçülməsi məsələsi ilə ilk dəfə ingilis iqtisadçıları Ç.But və S.Rauntri məşğul olmuşlar.

İran İslam Respublikası iqtisadçı alimlərindən D-r Fərhad Xudadad Kaşi, Mustafa Azəri, Vahid Mahmudi, Leyla Əbül Fəthi və başqaları yoxsulluq probleminin bir sira istiqamətlərini tədqiq etmişlər.

Bütün bunlarla yanaşı, müasir cəmiyyətin kəskin sosial problemi hesab olunan yoxsulluğun təsnifləşdirilməsi inkişaf etmiş Qərb ölkələri və inkişafı geri qalan dövlətlər üçün yoxsulluğun fərqli qaydada müəyyən

---

[1] Аверин, А.Н. Социальная политика государства и социальная структура общества / Акад. нар. хоз-ва при Правительстве Рос. Федерации. М.: ТОО "Дело", 1995 Генкин Б.М. Экономика и социология труда. Учебник для вузов. М.: Издательская группа НОРМА - ИНФРА - М, 1998. - 384с. Голосенко И. А. Нищенство как социальная проблема (Из истории дореволюционной социологии бедности) // Социологические исследования. 1996. №7. — с.27-3 Гордон Л.А. Четыре рода бедности в современной России // Социологический журнал. 1994.№4. С.18-35. Заславская Т.И. Бизнес-слой российского общества: Сущность, структура, статус // Общественные науки и современность. 1995.№1. Зубова Л.Г. Представления о бедности и богатстве: Критерии и масштабы бедности // Экономические и социальные перемены: Мониторинг общественного мнения, 1996, №4: Иванов О. И. Социальная напряженность: основные показатели, методы выявления и измерения// Теория и практика экономических реформ. СПб. 1994. Ильин В. Социальное неравенство / Центр социологического образования института Социологии РАН.М.: Изд-во «Институт социологии РАН», 2000.280с. Левада Ю. Индексы социальных настроений в «норме» и в кризисе. / Экономические и социальные перемены: мониторинг общественного мнения. Информационный бюллетень ВЦИОМ, 1998, № 6. С.7-131; Микульский К.И. Экономическая реформа и социальная политика // Вопросы экономики. 1993. № 12; Сычева В.И. Измерение уровня бедности: история вопроса // Социологические исследования. № 3, 1996; Чернина Н.В. Бедность как социальный феномен Российского общества // Социологические исследования, 1994, №3; Ярошенко С.С. Синдром бедности // Социологический журнал. 1994. №2. — С.46.

edilməsi, “sabit” yoxsulluqla “üzən” yoxsulluğun fərqləndirilməsi, yoxsulluğun miqyaslarının müəyyənləşdirilməsi, yoxsulluğun nəticələri və s. məsələlər haqqında, bütövlükdə İİR-də və xüsusilə Ərdəbil vilayətində yoxsulluğun aradan qaldırılması barədə kompleks tədqiqatın aparılması zəruridir və yoxsulluğun yüksək səviyyədə olduğu Ərdəbil kimi vilayətlər üçün çox vacibdir.

***Tədqiqatın məqsəd və vəzifələri.*** *Tədqiqatın məqsədi* yoxsulluq və onun aradan qaldırılması yollarına dair nəzəri məsələləri ümumiləşdirib, onu İİR və Ərdəbil vilayətində yoxsulluğun xüsusiyyətləri ilə əlaqələndirib, İİR-də həyata keçirilən sosial siyasətinin əsasını təşkil edən tədbirlər kompleksini, Ərdəbil vilayəti əhalisinin sosial müdafiəsinin müasir vəziyyətini təhlil etmək, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına və yoxsulluğun aradan qaldırılmasına aid elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdır.

Qeyd olunan məqsədə nail olmaq üçün aşağıdakı *vəzifələrin* həlli nəzərdə tutulmuşdur:

-İİR dövləti tərəfindən müasir dövrdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərini müəyyənləşdirmək;

-Yoxsulluğun aradan qaldırılması ilə bağlı nəzəri məsələləri öyrənmək;

-Ölkədə həyata keçirilən iqtisadi islahatların sosial problemlərlə əlaqəsini, xüsusilə yoxsulluğun aradan qaldırılmasına təsir mexanizmini araşdırmaq;

-əhalinin sosial şəraitinin müasir vəziyyətini öyrənmək;

-Ərdəbil vilayətində əmək ehtiyatlarından istifadə və məşğulluğun vəziyyətini öyrənmək;

-əhalinin müxtəlif qruplarının gəlir və xərclərinin müasir səviyyəsini öyrənmək, inkişaf dinamikasını və dəyişmə meyllərini hərtərəfli təhlil etmək;

-əhalinin yoxsulluğunun aradan qaldırılması və sosial müdafiəsinin dövlət təminatının təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək;

-yoxsulluq probleminin aradan qaldırılması yollarını müəyyən etmək;

-İİR-də dövlətin sosial siyasətinin təkmilləşdirilməsi, yoxsulluğun aradan qaldırılması və əhalinin sosial müdafiəsinin təkmilləşdirilməsinə dair praktiki tövsiyələr hazırlamaq.

***Tədqiqatın predmeti və obyekti***. Tədqiqatın *obyekti kimi* İranda və Ərdəbil vilayətində əhalinin həyat səviyyəsini səciyyələndirən sosial institutlar və bazar mühiti seçilmişdir. Tədqiqatın *predmetini* müasir dövrdə

İİR-da yoxsulluğun aradan qaldırılmasına, insanların fəaliyyətinin sosial-iqtisadi şərtlərinin tənzimlənməsinə tədbirlər kompleksinin formalaşması ilə əlaqədar olan nəzəri və praktiki məsələlər təşkil edir. Faktiki materiallar əsasında əhalinin sosial vəziyyəti və yoxsulluğun səviyyəsi təhlil edilmişdir. Qarşıya qoyulmuş problemin həlli yollarını əsaslandırmaq üçün İranda yoxsulluğun aradan qaldırılması ilə bağlı proqramlar təhlil edilmiş və digər ölkələrdə bu sahədə həyata keçirilən tədbirlərlə müqayisə edilmişdir. Dissertasiya işinin yazılmasında İran İslam Respublikasının Statistika Komitəsinin, Maliyyə nazirliyinin, BVF-in, Dünya Bankının məlumat və hesabatlarından istifadə edilmişdir.

***Tədqiqatın elmi yeniliyi.*** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

-müasir şəraitdə əhalinin sosial müdafiəsinin və yoxsulluğun aradan qaldırılmasının obyektiv zəruriliyi nəzəri cəhətdən əsaslandırılmışdır;

-İİR-də həyata keçirilən iqtisadi islahatların dövlətin sosial siyasətinə təsiri elmi cəhətdən əsaslandırılmışdır;

-İİR-in cari sosial-iqtisadi vəziyyətinə, yerli adət-ənənələrə uyğun göstəricilər seçilərək, onların əsasında təhlil aparılmışdır;

-əhalinin qazancının növlərinə görə yoxsulluq təsnifləşdirilmişdir;

-ölkədəki mövcud şəraiti nəzərə almaqla səmərəli sosial siyasətin işlənib hazırlanması üçün yoxsulluq həddləri, onun dərinliyi müəyyənləşdirilmişdir;

-İİR-də və Ərdəbil vilayətində yoxsulluğun sərhədlərinin müəyyənləşdirilməsi və yoxsulluq indeksinin hesablanması gəlir və istehlak göstəriciləri (pul göstəriciləri) əsasında həyata keçirilmişdir;

-Ölkənin və əyalətin şəhər və kənd ailələrinin gəlirlərinin qərarlaşması qaydaları və vəziyyəti araşdırılmışdır;

-İranda yoxsulluğun aradan qaldırılması yolları nəzəri cəhətdən əsaslandırılmışdır.

***Tədqiqatın praktiki əhəmiyyəti.*** Tədqiqatın praktiki əhəmiyyəti aşağıdakılardan ibarətdir:

-yoxsulluun aradan qaldırılması üçün əmək ehtiyatlarından istifadənin yaxşılaşdırılmasının və məşğulluğun yüksəldilməsinin zəruriliyi elmi cəhətdən əsaslandırılmışdır.

-Ölkədəki mövcud sosial şəraiti nəzərə almaqla yoxsulluğun aradan qaldırılmasına dair əsaslı təkliflər hazırlanmışdır.

-Dövlətin sosial siyasətinin təkmilləşdirilməsi, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması və onun iqtisadi mexanizminin təkmilləşdirilməsinə aid bəzi təkliflər hazırlanmışdır.

-Dissertasiyanın nəzəri müddəalarından və faktiki materiallarından əhalinin sosial müdafiəsi proqramlarının hazırlanmasında və tədris prosesində istifadə oluna bilər.

***İşin aprobasiyası***. Dissertasiya işinin əsasə müddəaları və nəticələri bir sıra beynəlxalq elmi-praktiki konfranslarda (Vladimir, 2010, Moskva, 2010); BDU-nun İqtisadi nəzəriyyə kafedrasının iclasında (Bakı, 2011) müzakirə olunmuşdur.

***Çap olunmuş elmi əsərlər:*** Dissertasiya mövzusu ilə bağlı 11 elmi əsər nəşr edilmişdir.

***Dissertasiyanın strukturu və həcmi:*** Dissertasiya girişdən, 3 fəsildən, nəticədən və yekunlardan ibarətdir. Dissertasiyanın məzmunu 190 səhifədə açıqlanıb (əlavələrlə), burada 12 cədvəl, 57 şəkil və ədəbiyyat siyahəsı verilmişdir (143 adda).

## İŞİN MƏZMUNU

Dissertasiyanın girişində problemin ümumi xarakteristikası, işin aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, yenilik və praktik əhəmiyyəti izah edilir.

**Dissertasiya işinin I-ci fəslində (“YOXSULLUQ PROBLEMİNİN ARAŞDIRILMASI METODOLOGİYASINA DAİR”)** ilk əvvəl *əhalinin həyat səviyyəsi və yoxsulluq haqqında nəzəriyyələr* (birinci yarımfəsil) təhlil olunmuşdur. Məlumdur ki, yoxsulluğun tərifi barəsində mütəxəssislər arasında həmişə fikir ayrılığı olmuş və olmaqdadır. Yoxsulluq və dövlətçilik fiziki və ictimai mühit, şəxsi mövqe, insanın yaxud qrupun maddi və mədəni ehtiyacları nəzərə alınmaqla nisbi anlayışlardır. Buna görə yoxsulluq heç bir vəchlə mütləq anlayış olan bir mənalı söz deyildir. Bu halda maddi və mənəvi mənbələrdən istifadə etmək məqsədi ilə insan kəramətinin təminedici olan minimal səviyyəsini nəzərdə tutmaq olar.

Bu fərqlər insan mövcudluğunun fəlsəfəsi barədə təfəkkür növündən, onun ictimai rolundan, ictimai ədalət anlayışının qavranılmasından, fərdin və ya qrupun orijinallığına inamdan, yerli həyat şəraitindən və bu kimi digər şərtlərdən törəyir. Beləliklə, yoxsulluq barədə bir müəyyən anlayışın təklif edilməsi, onun bir neçə ölçülü olması səbəbinə o qədər də asan bir iş deyildir. Bu anlayışın müxtəlif insanlar arasında bir-birindən fərqli mənaları ola bilər. Yoxsulluğun metodoloji və terminoloji tərifi daha çox yoxsul hesab edilən insan və qrupların tərifləri üçündür.

Nəticədə, yoxsulluğun qarşısını almağa yönəldilmiş tədbirlərin və

təkliflərin yoxsulluğun tərifi ilə fərqli olması mümkündür.

Dissertasiyanın bu bölmədə yoxsulluq probleminə aid olan aşağıdakı nəzəriyyələr təhlil olunmuşdur: iqtisadi artıma əsaslanan baxışlar, yoxsulluğun araşdırılmasında əhaliyə əsaslanan nəzəriyyələr, yoxsulluğun mədəni ölçülərinə əsaslanan nəzəriyyələr, gəlirlərin bölüşdürülməsi üsullarına əsaslanan nəzəriyyələr.

Həmin nəzəriyyələr dissetasiyada müxtəsər şəkildə araşdırılmışdır (cəmi 12 məktəb). Yoxsulluğun mahiyyəti, formalaşması yolları, inkişaf xüsusiyyətlərinə birmənalı yanaşma olmadığı kimi, bu problemin həllində də müxtəlif problemlər vardır, o cümlədən təhlil etdiyimiz regionda.

Dissertasiya işinin növbəti, "*Yoxsulluq həddinin tərifi və hesablanması*" adlı bölməsində (ikinci yarımfısil) gəlirinin aralıq nisbətinin göstəricisi təhlil olunur. Müxtəlif yoxsulluq indeksləri mövcuddur - Amartiya Senin yoxsulluq indeksi, Takayama indeksi, Faster, Qrır və Turbekin yoxsulluq indeksi və s. Hər bir indeksə müəllif tərəfindən münasibət bildirilir.

Bu bölmədə həm də yoxsulluğun kökləri və səbəbləri araşdırılır, o cümlədən: 1) tarixi səbəb, 2) coğrafi səbəb, 3) mədəni səbəb, 4) iqtisadi səbəb, 5) ictimai səbəb 6) siyasi səbəb. Bu səbəblərin hər biri dissertasiyada ayrılıqda şərh olunur. Gəlirlərin paylanmasının qeyri-bərabərliyi artdıqca, gəlir təbəqələri arasındakı aralıq da o qədər dərinləşir.

**II fəsildə ("İRANDA VƏ ƏRDƏBİL ƏYALƏTİNDƏ YOXSULLUĞUN VƏZİYYƏTİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ")** birinci olaraq *İranda yoxsulluq indeksi və Ərdəbil əyalətinin mövqeyinin araşdırılması* (birinci yarımfəsil) məsələsinə diqqət yetirilmişdir.

Yoxsulluğun ölçülməsinin bütün bir indeksli miqyasları gəlirlərinin miqdarı və ya xərcləri yoxsulluğun razılaşdırılmış xəttindən aşağı olan fərd yaxud ailə yoxsul hesab edilir. Məsələni daha da aydınlaşdırmaq üçün fərz edin ki, n-qədər fərd, yaxud ailəmiz vardır və fərdin, yaxud ailənin gəlirləri İ-$y_i$-yə bərabərdir. Əgər qeyd edilən fərdi, yaxud ailəni (n) gəlirlərinin miqdarı qədər yüksələn halda qaydaya salsaq və yoxsulluq xəttini (Z) ilə göstərsək aşağıdakını əldə edəcəyik [105].

$$y1 \leq y2 \leq ...yq \leq Z \leq yq+1 \leq ...yn-1 \leq yn$$

Əgər yoxsulluq xəttindən aşağıda olan şəxslərin sayını y ilə göstərən yoxsulluq miqdarının ölçülməsinin ən geniş indeksi, yəni adambaşına nisbətini əldə edərik. Bu yoxsulların sayının bütün cəmiyyət üzvlərinin sayına bölgüsündən əldə edilir. Başqa sözlə, əgər H – adambaşına nisbətin göstəricisi olsa aşağıdakı düsturu olacağıq:

$$H=\frac{q}{n}$$

Bu indeksin yoxsulluq aralığının və həmçinin onun gəlirlərinin bölgüsündəki həssaslığı zəminində çatışmazlıqları olsa da, cəmiyyətdəki yoxsulluğun sadə və ümumiləşdirilmiş təsvirini verdiyinə görə ondan çox istifadə edilir.

İranda yoxsulluğun müxtəlif indekslərinin hesablanması ilə bağlı qeyd edilməlidir ki, onun hesablanması və müntəzəm şəkildə təqdim edilməsi üçün rəsmi bir təşkilat yoxdur. Eyni halda, universitet alimləri və bəzi dövlət orqanlarının mütəxəssisləri tərəfindən yoxsulluq səviyyəsinin miqdarı zəminində müxtəlif hesablamalar icra edilmişdir.

İnsan inkişafının indeksi (HDİ) bir ölkənin üç mühüm sahədə – uzun ömürlülük, təhsil və həyat standartlarının səviyyəsi sahələrində əldə etdiyi nailiyyətlərinin göstəricisidir. Dissertasiyada İranda bu indeksin miqdarından əlavə adambaşına düşən gəlir ABŞ dolları ilə hesablanaraq təqdim edilmisdir. Qeyd edilməlidir ki, insan yoxsulluğu indeksinin aşağı düşməsi yoxsulluq baxımından ölkədəki vəziyyətin yaxşılaşmasını göstərir. Yəni, yoxsulluğun indeksinin düşməsi ilə yoxsulluğun səviyyəsi də aşağı düşür.

Nisbi yoxsulluq xəttinə görə İranda yoxsulluğun formaları da araşdırılmışdır.

İranda mütləq yoxsulluq səviyyəsi əsasında ölkənin şəhər və kəndlərində yoxsulluq tendensiyasının azalmağa doğru getdiyinin şahidi oluruq. Yoxsulluğa nisbi səviyyə əsasında baxanda isə yoxsulluq tendensiyasının (ilk illərdən başqa) çoxalmağa doğru getdiyini görürük. Yəni ki, şəhər və kəndlərdə yoxsulluq faizi 1992-ci ildəki 19 və 22 faizdən, 2009-ci ildə 26 və 22%-ə çatdığını görürük. Hər iki yerdə 1996-cı illərdə yoxsulluq faizi ən yüksək səviyyəyə yüksəlmiş və ondan sonra bir qədər azalmışdır. Yoxsulluq probleminin hər iki baxışında nəticələr arasındakı fərq onu göstərə bilər ki, mütləq yoxsulluğun azaldılması yolunda dövlətin səylərinə baxmayaraq gəlirlərdə olan qeyri-bərabərik səbəbinə nisbi yoxsulluq artmışdır.

Belə bir nəticəyə gəlmişik ki, araşdırılan müddət ərzində gəlir qeyri-bərabərsizliyinin göstəricisi Islam inqilabından sonra 1977-ci ildəki 0.514 ədədi 1988-ci ildə 0.438 olaraq azalmışdır. Belə nəticə əldə etmək olar ki, ötən ildə həyata keçirilmiş tədbir və səylərdə cəmiyyət səviyyəsində qeyri-bərabərliyin azalmasında müvəffəqiyyət əldə edilməmişdir. Nəticəsi budur ki, ailələrin xərc və gəlirlərinin, onların profillərinin mütləq nisbi yoxsulluq xətləri üzrə araşdırılması təxminən eyni bir formanı üzə çıxarır. Mütləq

yoxsulluq indeksi əsasında şəhər yerlərində yoxsulluq 1991-ci ilə qədər kənd yerlərindən çox olmuşdur. Lakin, bu dövrdən sonra şəhər yerlərindəki yoxsulluq kənd yerlərindən az olmuşdur. Yoxsulluğun sosial-iqtisadi qruplara bölgüsü əsasəndi İranda yoxsulluğun forması göstərir ki, ən böyük yoxsulluq səviyyəsi aşağıdakı xüsusiyyətlərə malik ailələrdə müşahidə edilir: ailə başçısının yaşı 46-dan çox olduqda, ailə başçısı az savadlı, yaxud tam savadsız olduqda, ailə başçısı kənd təsərrüfatı və ya tikinti sahəsində işlədikdə, ailə başçısının peşəsi ixtisası kənd təsərrüfatı və ya sadə xidmət fəhləsi olduqda.

Növbəti – "*Ölkənin və əyalətin şəhərli və kəndli ailələrinin gəlirlərinin paylanması vəziyyətinin araşdırılması*" - adlı bölməsində (ikinci yarımfəsil) Ərdəbil əyalətində müxtəlif meyarlar əsasında yoxsulluğun vəziyyətinin araşdırılır.

Aylıq yoxsulluq xəttini daha aydın göstərmək üçün riyal hesabını ABŞ dollarına, yaxud Azərbaycan manatına çevirmək olar. Araşdırılan dövrlərdə bir dollar 8500 riyal və 1 manat təxminən 13000 riyal olmuşdur. Bu halda 2009-cu ildə Ərdəbil əyalətində hər bir ailənin aylıq yoxsulluq xətti təxminən 192 manat və ya 240 ABŞ dolları məbləğində olmuşdur. Hər bir ailənin həcminin 5.8 nəfər olduğunu nəzərə alsaq hər bir insanın aylıq yoxsulluq xətti 50 ABŞ dolları hesablanacaqdır. Yəni, 2009-cu ildə 50 ABŞ dollar və ya 40 manatdan az aylıq gəlir olan hər bir Ərdəbil sakini yoxsul hesab edilir.

Diqqətə layiq məsələlərdən biri də budur ki, yoxsulluq səviyyəsinin 50%-i ərzaq yoxsulluğuna aiddir.

Dissertasiyada həmçinin Ərdəbil əyalətinin şəhər və kənd yerlərində yoxsulluq fərqi araşdırılmışdır.

Ərbədil əyalətinin İran yoxsullarının sayına nisbətən payı 2% olduğunu nəzərə alaraq 2009-cu ildə maksimum 2.05 milyard dollar vəsait ayırmaqla ölkənin bütün yoxsul əhalisi yoxsulluq səviyyəsinə və ya xəttinə köçürülə bilər. Bunun əksi ola bilər ki, çörək, dərman və bəzi ərzaqların qiymətlərinin liberallaşdırılması və enerji, benzin və s. subsidiyaların ləğv edilməsi ilə inflyasiyanın artması yoxsullara heç bir himayə siyasəti tətbiq etmədən onların vəziyyətinin kəskin şəkildə pisləşməsinə səbəb ola bilər.

Ərdəbil əyalətinin yerləşdiyi regionda şəhər yerlərində yoxsuluq nisbəti 1994-cü ildə 1989-cu il ilə müqayisədə (birinci inkişaf planı) azalmış, lakin bu nisbət 1994-cü il ilə 2008-ci illər arasında yüksəlmişdir. Kənd yerlərində yoxsulluq nisbəti əvvəlcə dəyişilməz olmuş, lakin şəhər yerlərində olduğu kimi 1994-2001-ci illər arasında artmışdır. Yoxsulluğun azalmasının gedişi stabil şəkildə nəzərə çarpmır və ölkənin müxtəlif

əyalətlarında yoxsulluq səviyyələri müxtəlifdir.

Sosial rifah göstəricisi nəzərə alınmaqla Ərdəbil əyalətinin inkişaf etməsi səviyyəsinin digər əyalətlərlə müqayisəsi göstərir ki, 14 ildə Ərdəbil əyalətının əhəmiyyətli dərəcədə inkişaf etməsini müşahidə edirik. Bu inkişaf digər tərəfdən əyalətda mövcud olan potensial imkanların mövcud olduğunu aşkara çıxarmışdır. Yeni imkan və bacarıqların üzə çıxarılması və onların faktiki qüvvəyə çevrilməsi gələcəkdə əyalətın daha da inkişaf edib çiçəklənməsinə səbəb olacaqdır. Ərdəbil əyalətının insan inkişafının başqa əyalətlar ilə müqayisəsi də aparılmışdır.

Məlumdur ki, insan inkişafı indeksi (HDİ) üç əsas parametr əsasında: biliklərin əldə edilməsi, həyat üçün lazım olan maddi imkanlardan istifadə və sağlam olaraq uzun ömür yaşamaq parametrləri əsasında hesablanır. Bu parametrlərin hər birinin hesablanması üçün göstəricilər araşdırılır.

İnsan inkişafı indeksinin hesablanması üsulu ilə bağlı bəzi tənqidlərin olmasına baxmayaraq bu indeks hələ də ölkələrin inkişafını təyin etmək üçün mühüm meyar kimi nəzərdə tutulur və Birləşmiş Millətlər Təşkilatı da hər il insan inkişafı ilə bağlı hesabatlar nəşr etməklə bütün ölkələrin insan inkişafını hesablayır və ölkələr bu indeks əsasında dərəcələrə bölünürlər. Dissertasiyada əlavə olaraq, əvvəlcə 1960-2004-cü illərdə İranda insan inkişafının dinamikası təklif edilir və sonra 1996 və 2001-ci illərdə əyalətların vəziyyəti araşdırılır və Ərdəbil əyalətının mövqeyi təhlil edilir.

Bütün ölkə üçün hesablanmış insan inkişafı indeksi (HDİ) son əlli ildə ölkədə insan inkişafının yaxşılaşdığını nümayiş etdirir. Belə ki, insan inkişafı indeksi qiymətləri arasında ən böyük və ən kiçik fərq 1996-cı ildə 0,22 və 2008-ci ildə 0,19 olmuşdur.

Ərdəbil əyalətının insan inkişafı indeksi 1996-cı ildə 0,660-dan-2008-ci ildə 0,639-a enmişdir. Halbuki, İran üzrə insan inkişafı indeksi qeyd edilən müddətlərdə yüksəlmək üzrə olmuşdur. Ərdəbil əyalətında insan inkişafı indeksinin pisləşməsinin səbəbi gəlir göstəricilərinin azalması olmuşdur ki, müvafiq olaraq 0,638-dən 0,529-a enmişdir. Eyni zamanda yaşayışa ümid və təhsil göstəricilərinin hər ikisi yaxşılaşmışdır. Bu o halda baş vermişdir ki, bütün ölkə üzrə 1996-2008-ci illərdə gəlir göstəriciləri yüksəlməkdə olmuş və bu səbəbdən Ərdəbil əyalətında gəlir göstəricisinin azalması ayrıca olaraq araşdırılıb, təhlil edilməlidir.

Digər tərəfdən, gəlir göstəricilərinin heç birində, yaşamağa ümid, təhsil və insan inkişafı indeksində 1996 və 2008-ci illərdə Ərdəbil əyalətının vəziyyəti İran üzrə orta qiymətlərdən yaxşı olmamışdır. Eyni

zamanda Ərdəbil əyalətının insan inkişafı indeksinin ölkə üzrə insan inkişafı indeksindən fasiləsi 2001-ci ildə 1996-cı ilə nisbətən artmışdır.

İranda yoxsulluğun müxtəlif parametrləri və Ərdəbil əyalətının mövqeyi ilə bağlı həm də demoqrafik proseslər fonunda araşdırılmışdır. Demoqrafik partlayış xarakterli inkişaf nəticəsində yoxsulluğ da artır. Əhalinin sürətlə artımı şəraitində torpaq və başqa istehsal mənbələrində dəyişiklik baş verməsi xalq üçün normal həyat səviyyəsinin təminatı olduqca çətinləşir və bu «yoxsulluğun əhali tələsi» adlandırılan həmin prosesdir.

Lakin indi mövcud statistik məlumatlara əsasən əhalinin gənclik əmsalı (15 yaşından aşağı olan əhalinin bütün əhalinin sayına nisbəti) 1986-cı ildəki 45,5%-dən 2006-cı ildə 29%-ə çatmışdır. Bu məsələ yoxsulluğun azalmasında güclü amillərdən sayılır.

Yaşamağa ümid indeksinin dinamikası vətəndaşların sağlamlığının nəzərə çarpacaq dərəcədə yaxşılaşdığını göstərir. Savadsızlığın ləğvi də mühüm vəzifələrdən biridir. Ölkə səviyyəsində təhsil və səhiyyə sahəsində nəzərə çarpacaq inkişaf olsa da, bu inkişafın müxtəlif regionlar üzrə paylanması qeyri bərabər olmuşdur. Başqa sözlə, ölkənin əyalətlarında insan inkişafı və insan yoxsulluğu bir növ fərqli şəkildə paylanmışdır. Yüksək insan inkişafı olan əyalətlarda aşağı səviyyəli insan yoxsulluğu olmuş və əksinə, aşağı səviyyəli insan inkişafı olmuş yerlərdə yüksək insan yoxsulluğu müşahidə edilmişdir.

Ərdəbil əyaləti ölkə üzrə və digər əyalətlar üzrə orta qiymətlərlə müqayisədə əlverişli və qəbul edilən vəziyyətə malikdir və uğurlu əyalətlərdən sayılmaqdadır. Yoxsulluq mövzusunda maraqlı göstəricilərdən biri də qanunla göstərilmiş həddən aşağı yaşlarda ikən işləyən uşaqların faiz göstəricisidir. Ərdəbil əyalətında 5 - 14 yaş arasında olan uşaqların 17%-i işləyir və bu əyalətda şiddətli yoxsulluq və məhrumiyyətin mövcudluğunu göstərir.

Sanitariya cəhətdən təmiz içməli su mühüm göstəricilərdən sayılır və bu göstərici üzrə də Ərdəbil əyalətında vəziyyəti yaxşılaşdırmaq üçün dövlət tərəfindən ciddi şəkildə kapital qoyuluşları edilməlidir. Ərbədil əyalətın bu göstərici üzrə mövqeyi qəbul edilməzdir. Hamiləlik göstəriiləri və problemləri də də nəzərdən keçirilmişdir, məsələn, anaların yodlu duzdan istifadə etməmələri.

**III Fəsildə (İRANDA YOXSULLUĞUN AZALDILMASI YOLLARI)** araşdırılan problemlərdən biri - *yoxsulluğun azaldılması üçün dövlətin və iqtisadiyyatın yararlığının artması* olmuşdur.

Qeyd olunur ki, iqtisadi inkişafın yayılması, əmək bazarlarının

yoxsulların xeyrinə yaxşılaşması, yoxsulların sərvətlərinin çoxalmasına yardım etmək, gəlirin ədalətli bölünməsinə dair dövlətin uyğun siyasət aparması kimi mexanizmlər yoxsullar üçün imkanların yaxşılaşmasına zəmin yaradır.

Bunun üçün dövlətin və sosial qurumların yoxsullara dair daha çox öhdəlik götürmələri ilə onların vəziyyətlərinin yaxşılaşdırılması nəticəsində yoxsulluğun azaldılması əsas çıxış yollarından hesab olunur. Digər tərəfdən isə xəstəlik, iqtisadi sabitsizlik, quraqlıq kimi nəzarətdən kənar, sel, qasırğa, zəlzələ kimi gözlənilməz hadisələrin qarşısında yoxsulların müdafiəsizliyi onların vəziyyətinin daha da pisləşməsinə səbəb olur. Buna görə də müharibə, xəstəlik, iqtisadi böhran və təbii müsibətlər qarşısında riskin azaldılması yolu ilə təhlükəsizlik təminatının artırılması yoxsulluğun azalmasının digər yollarındandır.

Biz bütün bunları nəzərə alaraq, bir sıra təklifləri irəli sürmüşük, o cümlədən:

1. İran İslam Respublikası dövləti keçmişdə olduğu kimi daxili təhlükəsizliyə, sülh və əmin-amanlığa əhəmiyyət verməli, çalışmalıdır.
2. Dövlət nüfuz artımına nəzarət siyasətinə olduğu kimi davam etdirilməlidir. Külli miqdarda gənc əmək qüvvələrinə daimi iş yeri yaratmaq dövlətlərin əsas problemlərindən biri olacaqdır.
3. Dövlət maliyyə və istehsal bazarlarına birbaşa müdaxilə etməkdənsə, özəl sektorun davamlı fəaliyyətinə şərait yaratmalıdır.
4. Dövlət büdcə xərclərinə nəzarəti artırmaq, büdcə gəlirlərini artırmaq və necə dəyərlə dövlətin özünə bir az təzyiq göstərmək kimi iqtisadi siyasət aparmalıdır.
5. Dövlət ixracatı genişləndirmək, iqtisadi fəaliyyətləri, istehsal və xidmət birliklərini rəqabətə cəlb etməyə çalışmalıdır.
6. Dövlət bürokratik maneələri aradan aparıb minimuma endirməlidir. Bununla da qeyri-leqal iqtisadi sektoru (qeydiyyatdan kənar) leqal və dövlət dəstəyindən yararlanan iqtisadi sektora çevrilməlidir.
7. Yoxsulların maliyyə bazarlarından və ucuz kreditdən yararlanmasına şərait yaratmalıdır. Bu, orta və kiçik miqyaslı fəaliyyətlərin yayılmasına və yoxsulların malı və mənzil təminatı üçün zəruridir.
8. Dövlət iqtisadi infrastrukturların yaradılmasını təmin etməli, rayonlarda ədalətli paylanmanı həyata keçirməlidir.
9. Təlim-tərbiyə, səhiyyə və peşə təlimləri pulsuz olaraq yoxsulların ixtiyarında olmalıdır. Bununla da yoxsullar ən böyük sərmayələri olan əmək qüvvələrini yaxşılaşdırsınlar.
10. İranda zəlzələ, sel, torpaq sürüşməsi formalarında büruzə edən təbii və

gözlənilməz hadisələrin qarşısında yoxsulların müdafiəsi aktual problem kimi dövlətin diqqət mərkəzində olmalıdır.

11. Sosial sığortalar, dərman xidmətləri, təqaüd, əmək qabiliyyətini itirmək və işsizlik sığortası ümumxalq ehtiva etməli və bununla da yoxsulların müdafiəsizliyini minimuma endirməlidir.

12. Dövlətin dəstək xarakterli qurum və müəssisələri daha çox öhdəlik götürmək və cavabdeh olmaq məcburiyyətini daşımalı, yoxsulların siyasi proseslərdə, regional qərar qəbul etmələrdə iştirakını təmin etmək, cinsi, etnik və dini baxımdan ikili standartların və sosial maneələrin aradan qaldırılmasını təmin etməlidir.

13. Yoxsulları mənzil tikintisinə cəlb etmək və ucuz kreditlərin verilməsi yolu ilə onlar üçün ucuz mənzil təmin etmək dövlətin diqqət mərkəzində olmalıdır.

14. Vəzifənin bacarığa əsaslanması, layiqli insanlardan, sinif, partiya və etnik mənsubiyyətdən asılı olmayaraq istifadə etmək dövlət qurumlarının təşkilat prinsipinə çevrilməlidir.

15. Dövlət xan neftin ixracından əldə etdiyi gəlirdən investisiya qoyuluşunda istifadə etməli, subsidiyaları isə məhz yoxsullara ayırmalıdır. Aztəminatlı və yoxsul təbəqələri birbaşa və dolayısı ilə dəstəkləmək zəruriliyi meydana çıxır.

16. Qiymət islahatından irəli gələn ziyan müxtəlif yollarla cübran edilə bilər: yoxsullara kompensasiya etmək, sosial sığortanı və sığorta xidmətlərini genişləndirmək. Birinci növbədə həmin sosial qruplar sərbəst qiymətlərin ziyanından amanda qalmalıdırlar.

17. Daimi iş yerinə əsaslanan daha yüksək iqtisadi inkişaf məqsəd götürülsün ki, gəlirlərin camaata uyğun paylanması ilə yoxsulların insanlıq şəni qorunsun və müddətdə yoxsulları yoxsulluq səviyyəsindən çıxarmaq üçün təlim-tərbiyə kimi sahələrdə investisiya qoyuluşuna təmin yaransın.

18. Dövlət nəzarəti olmalıdır ki, sosial əmin-amanlıq çətri və yoxsulları dəstək proqramları yoxsulluğun azaldılması strategiyasının tərkib hissələrindən yalnız biri hesab olunmalıdır.

19. Son illərdə neftin bahalaşması, bəzi illərdə isə büdcə gəlirlərinin xərcləri ödəməməsi tələblərin və nəticə etibarı ilə qiymətlərin artmasına gətirib çıxarmışdır. Bu zaman idxal alətindən düzgün istifadə etmək, eləcə də dəstək siyasətindən, işsizlik sığortasından və sosial təminatından istifadə nəzərdə tutulmalıdır.

20. Bir çox inkişaf və anti yoxsulluq proqramlarının planlaşdırılmasını və icrasını yerli orqanların səlahiyyətinə buraxmaq.

21. Bir çox siyasət və proqramların həyata keçirilməsini üzərinə götürən

dövlət və icra sistemi zaman sürəsində öz qabiliyyətini itirərək camaatla siyasətçilər arasında uçurum yaranmasına, əlaqələrin sarsılmasına gətirib çıxarır. Sosial səfərbərlik, qeyri-hökumət təşkilatlarının plan və icrada iştirakı informasiya və ümumi məlumatın ötürülməsinin genişlənib qanuniləşməsi dövlət cavabdehliyini gücləndirir.
22. İranın bütün əyalətləri hər il büdcə layihəsini məclisə təqdim edərkən onu neft gəlirindən asılı olmasına təkid etsə də hələ də İran iqtisadiyyatı, yoxsulları birbaşa və dolayı yollarla himayə etmək və subsidiyaların ödənilməsi tamamilə neft satışından, neftin qiymət və gəlirlərindən asılıdır. Inkişaf planı üçün neft asılılığının tədricən azalması, qeyri-neft ixracatın çoxalması lazımdır.
23. İstehsalın (GDP), büdcə və quruculuq və sərmayə xarakterli xərclərin vergi nisbəti neft gəlirlərindən yararlandıqlarına görə diqqətə layiq deyildir. Dövlət büdcəsinin 65 faizdən çoxu neft satışından təmin olunur. Büdcə, GDP, quruculuq xərclərinin vergi nisbəti artmalıdır. İranın müxtəlif rayon və regionları eyni inkişaf səviyyəsində deyildir. Buna görə də hər hansı bir ayrıseçkiliyə yol verməmək üçün neft gəlirlərindən məhrum rayon və yoxsul regionlara daha çox vəsait ayırmalıdır.
24. Dövlət ticarətin və valyuta qiymətinin sərbəst şəkildə və bazar prinsiplərinə əsasən müəyyənləşdirilməsi siyasətini aparmalıdır. Başqa sözlə inflyasiyanın bazar kasadlığı ilə eyni vaxta düşməsidir ki, Hollandiya xəstəliyi adı ilə tanınır.
25. İranın maliyyə sektoru dövlətin çox ciddi nəzarəti altındadır. İranda sələmçiliyin qeyri-qanuni olmasına baxmayaraq banklar öz funksiyalarını yerinə yetirmədiklərinə görə kənd və şəhərlərdə sələmçilik dəbdədir. Yoxsullar ucuz kreditlərdən yararlana bilmirlər. Onlar sələmçilik bazarından da kənarlaşdırılmışlar, çünki kredit faizlərini verməyə qadir deyillər.
26. Dövlət elə bir siyasət yürütməlidir ki, yoxsulların taxıl (çörək, düyü), yağ, tərəvəz, meyvə, süd və ət məhsulları istehlakının orta miqdarını artırsın.
27. Yoxsulluğun azalması proqramının uğurlu olması üçün regionçuluq siyasətinin yürüdülməsi təklif olunur. Məqsəd budur ki, inkişaf prosesi vilayətlərdə, rayonlarda və kəndlərdə ümumxalqın iştirakı ilə icra edilsin. Bununla da makro- və mikro- səviyyələrin arasında əlaqə yaranır, yoxsulluğun azaldılmasına xidmət edən kütləvi qurum və təşkilatlar güclənir, birbaşa yardım metodu deyil, sosial yönümlü kütləvi qurumlar güclənəcəkdir.

Növbəti bölmədə *yoxsulluğu azaltmaq üçün yaradılan dəstək*

*qurumlar və onların funksiyalarının artırılması yolları* araşdırılır.

Təcrübə göstərir ki, sosial himayələr yaxud ölkələrdə yoxsulluğun davam etməsinə səbəb olan bazar səhvlərini və çatışmazlıqlarını cübran etmək üçün istifadə oluna bilər. Daha doğrusu, yoxsulların vəziyyətinin yaxşılaşdırılması və ədalətin inkişafı üçün dövlətin sosial təminat proqramına dəxalət etməsi zəruridir.

İranda fəhlələrə, gündəlik müzdə işləyənlərə, təqaüdçülərə xidmət göstərən təşkilatlar vardır. Bundan əlavə yoxsul və möhtaclar ictimai dəstək verən dövlət və qeyri-dövlət təşkilatlar vardır.

Sığorta təşkilatları və təqaüd kassaları (sosial təminat təşkilatı, təqaüd kassası təşkilatı, dərdan xidmətləri sığortası təşkilatı) xüsusi funksiyalarını həyata keçirir.

Sosial təminat təşkilatının funksiyası əmək qanununun ehtiva etdiyi işçilərin (özəl, və dövlət sektorunda işləyənlərin) sığorta haqqını yığmaq, əvəzinə isə dərman, təqaüd, əmək qabiliyyətini itirmək və işsizlik xidmətlərini yerinə yetirir. Təqaüd kassası dövlətin rəsmi işçilərinə xidmət edir. Dərman sığorta təşkilatı isə dövlət işçilərinə, kəndlilərə, özünü məşğulluq adamlara və tələblərə ərman xidmətləri verir.

Yoxsullara və möhtaclara sosial dəstək verən təşkilatlar - Bəhzisti təşkilatı, İmdad komitəsi, Qırmızı aypara cəmiyyətidir.

Behzisti təşkilatı İslam inqilabının 1978-ci ildə qələbə çalmasından sonra şəhər və kənd yoxsullarına yardım etmək məqsədi ilə təsis edildi. Bu təşkilat üç növ xidmət göstərir: sağlamlıq, sosial xidmətlər, önləyici və mədəni xidmətlər.

Bu təşkilatın ən böyük hissəsi sağlamlıq xidmətlərini təşkil edən hissədir. Bu hissə möhtac və əlillərə lazım olan cihaz və alətləri təmin edir. Sosial xidmətlər əmək qabiliyyətini itirən xəstə pensiyaçılara və onların ailələrinə, kəndə və şəhər yoxsullarına verilir. İmdad yönümlü xidmətlər möhtac, başsız ailə, yararsız başçısı olan ailə (başçısı narkoman olan ailə), yetim və valideynsiz uşaqların saxlanıldığı yerlər, sağlamlıq texniki-peşə təlimi ocaqları, başçıları olmayan gənclərə və yeniyetmələrə pedaqoji xidmət verən mərkəzlərə verilir.

Önləyici xidmətlərə gəldikdə isə birbaşa və telefonla məsləhət vermə formalarında və genetik məsləhəti şəklində verilir.

İmdad komitəsi də 1978-ci ildə, islam inqilabı qələbəsindən dərhal sonra və İmam Xumeyninin əmri ilə yaradıldı. Onun şöbə və dəftərləri bütün vilayətlərdə, rayon və kəndlərdə və hətta bəzi xarici ölkələrdə fəaliyyət göstərir. Bu komitə başçılarını itirən möhtac ailələrə qulluq göstərir (aylıq pul yardımı və ərzaq yardımı, müalicə və övladlarının

təhsilinə yardım). Eləcə də işləyə bilməyən və özəl sosial şərait ucbatından ailəni təmin edəcək dərəcədə gəliri olmayan ailələrə yardım imdad komitəsinin proqramına daxildir.

60 yaşından yuxarı olan və işləyə bilməyən və ilkin məişət tələbatını ödəyə bilməyən kəndlilər də yardım proqramına daxildirlər. Eyni halda sel, zəlzələ, yanğın və müharibə kimi təbii və qeyri-təbii hadisələr nəticəsində əhvalını itirən və böhranla üzbəüz olan imdad komitəsinin dəstəyindən yararlanırlar.

Komitənin yardım miqdarı və məbləği ailələri yoxsulluq səviyyəsindən çıxara bilməsə də yoxsulluğun şiddətini azaldır, qida çatışmazlığına düçar olmaqdan amanda saxlayır, onun təlim və müalicə himayəsi isə bir çox möhtacların qüdrətinin yüksəlməsinə səbəb olur. Bütün bunlarla yanaşı imdad komitəsi qaytarılmaz borc formasında və yaxud aşağı faizli kredit verməklə ailələrin iqtisadi müstəqilliyinə yardım etməyə çalışır.

Qırmızı aypara cəmiyyəti də öz funksional fəaliyyəti ilə yanaşı və nisbi surətdə (imdad komitəsi və behzisti təşkilatı həddində yox) olsa da müəyyən xidmətlər göstərir. O cümlədən əlillərə lazım olan cihaz və alətləri təmin edir, bəzən də yoxsul tələbə və məktəblilərə yardım əlini uzadır.

Qeyd etmək lazımdır ki, İranda yüzlərlə xeyriyyə təşkilatları fəaliyyət göstərir ki, müxtəlif adlarla, hətta müəyyən ad daşımadan möhtacları himayə etməklə məşğuldurlar. Bu təşkilatların çoxu qeydiyyatdan keçməmiş və kütləvi formada idarə olunur və yoxsulları himayə və onun acılıqlarını azaltmaqda dərin təsir buraxırlar.

Növbəti bölmədə *Ərdəbil vilayətində yoxsulluğun azalması və gəlirin çoxalması üçün lazım olan insan resurslarının inkişafına dair* təkliflər verilmişdir. Ərdəbil vilayətinin iqtisadi inkişafı nə qədər sürətli və güclü olsa da az-çox geri qalmış bölgələr olacaqdır. Bu da təbii sərvətlərin olmamasından və ya iqtisadi fəaliyyət mərkəzlərindən uzaqda yerləşdiyindən irəli gələ bilər. Bütün regionların müvazinətli və hərtərəfli inkişafını təmin etmək üçün diyar planlaşdırmasından (Land use planning) istifadə edirlər. Miqrasiyanı tənzimləmək, kənd təsərrüfatı və heyvandarlıqla əlaqədar sənaye müəssisələrin kiçik şəhərlərdə və şəhər statuslu kəndlərdə yaradılması ilə onların gücləndirilməsi zəruridir.

Gələcəkdə kiçik iqtisadi fəaliyyətləri, ev istehsallarını dəstəkləmək, kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən alınacağına zəmanət vermək, suları nəzarət altına alaraq dem yerləri sulu yerlərə çevirmək, uyğun səhiyyə, müalicə və təlim xidmətləri vermək, kəndlərdə gəliri

artırmaqla kəndlilərin şəhərlərə keçməsini və kəndlərlə şəhərlər arasındakı ədalətsizliyi azaltmaq lazımdır.

Araşdıdığımız digər məsələ - *İranda yoxsulluğun aradan qaldırılması ilə bağlı siyasətlər və proqramlar* olmuşdur –inqilabdan qabaq və inqilabdan sonra. Qəbul edilmiş müxtəlif inkişaf planları təhlil olunur, onlara münasibət bildirilir. Inqilabdan əvvəlki dövrdə iqtisadi artım böyük şəhərlərə aid idi və kəndlər onun səmərələrindən o qədər də bəhrələnə bilmirdilər.

Inqilabın qələbəsindən sonra qəbul edilmiş konstitusiyada cəmiyyətdə yoxsulluğun və məhrumluğun kökündən ləğv edilməsi öz əksini tapdı.

İran İslam Respublikasının rəsmi şəkildə yoxsulluqla mübarizəni o gündəminə çevirdiyi əvvəlinci əsas addım 1995-ci ildə atılmışdı. Xüsusilə inqilabdan sonrakı illərdə kəndlilərin vəziyyətinə, yoxsul regionlara, kasıb qruplara xüsusi diqqət yetirilməsi məmurların və planlaşdırma ilə məşğul olanların fəaliyyətində əsas yer tutdu.

İranda yoxsulluğun ləğvi proqramlarının zəif olmasının köklərini də araşdırılmışdı, yəni ölkənin elmi və icraçı mütəxəssisləri arasında yoxsulluq anlayışının eyni cür başa düşülməməsi və İranda yoxsulluğun ləğvi proqramlarında xaos və pərakəndəlik.

*Nəticədə* qeyd olunur ki, yoxsulluq məsələsini həll etmək üçün aşağıdakı iki strateji yolun biri seçilməlidir:

a) Milli və beynəlmiləl ölçüdə yoxsulluğun sərhədlərinin gündən-günə genişlənməsi nəzərə alınmadan mövcud tendensiyaların davam etdirilməsi.

b) Mövcud tendensiyaların gedişatının saxlanılması və vahid qərarın qəbul edilməsi.

Ölkə yoxsulluqla mübarizədə daxili və xarici səviyyələrdə özünün münasib və şəffaf təsvirini yaratmaq istəsə dünyada yayılmış standart təriflərdən istifadə etməyə məcbur olacaqdır. İqtisadiyyatın, mədəniyyətin və s. qloballaşması ilə bu məsələyə xüsusilə diqqət yetirilməlidir ki, region və dünya ölkələri arasında özünün müqayisə olunacaq məntiqi təsvirinə malik olmaq üçün ölkə beynəlxalq standart və klassifikasiyalardan istifadə etməlidir.

***Dissertasiya işinin mövzusu ilə bağlı aşağıdakı məqalələr və tezislər çap olunmuşdur:***

1. Azadi B.M. İqtisadi artımın yoxsulluğa təsiri və gəlirlərin qeyri-bərabərliyi: yoxsullarm xeyrinə olan artım indekslərinin

hesablanması // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, 2008, IV buraxılış., s.436-441.
2. Azadi B.M. Gəlirin paylanmasının yaxşılaşdırılması və yoxsulluğun azaldılmasına dair dövlət siyasəti // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat elmləri seriyası 2008, № IV, s.96-99.
3. Azadi B.M. İran hakimiyyətinin yoxsulluğun azaldılması strategiyası // “İqtisadiyyat və Audit" aylıq elmi-praktik jurnal. Bakı, 2009. №1(103), s. 48-52.
4. Azadi B.M. Sosial ədalət sərbəst iqtisadiyyat // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat elmləri seriyası, 2009, №4, s.247-251.
5. Azadi B.M. İnvestisiyanı rəğbətləndirmək İranda yoxsulluğun azalması üçün real çıxış yoludur // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Elmi əsərlər, IV buraxılış, 2009, s.331-335.
6. Азади Б.М. Проблема бедности как фактор социальной напряженности // Отклонящееся поведение человека в современном мире: Проблемы и решения; Материалы конференции, 12 Мая 2010, Владимир, с.342-343.
7. Азади Б.М. Проблема индексации цен в условиях неравенства доходов /Материалы 1-ой Международной научно-практической конференции, 30 ноября 2010, Москва, с.166-167.
8. Азади Б.М. Проблема бедности в Ардебильской провинции Ирана // Вектор науки, Тольяттинского Государственного Университета, серия, «Экономика и управление», 2011, №1 (4), с.5-8
9. Azadi B.M. Şangı A. Comparsion of comparative advantage of value – added in agriculture sector of different regions of a country (case studu: Ardebil province - IRI) // ECOLOGY., ENVIRON MENT and CONSERVATION, 2012, vol. 18 (3)., p.601-605.
10. Azadi B.M. Globalization and the Poverty issue in the Developing Countries // Journal of Applied sciences, 2012, 12(24) p.2636-2640.
11. Mirbagheri M., Azadi B.M., Azadi S. Studying the structure of economic and modelling of economic growth on the basis of Solou model // African Journal of Business Management, 2012, v.6(8), p.2784-2792.

**Бегнам Мухаммед оглу Азади**

# Проблема бедности в Иранской Исламской Республике и пути ее преодоления (на примере провинции Ардебиль)

## Резюме

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении раскрывается актуальность проблемы, степень ее исследованности, объект и предмет, цели и задачи исследования, методология, обосновывается теоретическое и практическое значение работы.

В первой главе диссертации «К методологии исследования проблемы бедности» рассматриваются вопросы уровня жизни населения и разные теоретические подходы к проблеме бедности. Здесь излагаются различные определения понятия бедности и даются методы вычисления его уровня.

Во второй главе диссертации «Состояние бедности в Иране и провинции Ардебиль и ее особенности» раскрываются вопросы определения индекса бедности в Иране и положение здесь провинции Ардебиль, а также анализируется состояние распределения доходов среди городского и сельского населения.

В третьей главе под названием «Пути преодоления бедности в Иране» анализируются возможности повышения эффективности государственной политики в сфере преодоления бедности, роль здесь экономического развития, пути расширения функций различных организаций, в том числе и неправительственных, в деле уменьшения бедности. Отдельно рассматриваются проблемы развития человеческих ресурсов в провинции Ардебиль с целью уменьшения бедности и повышения уровня доходов. В последнем разделе данной главы рассматриваются различные проекты и программы в рамках государственной социальной политики.

В заключении делаются необходимые выводы и даются соответствующие рекомендации.

**Mohammad Azadi Behnam oglu**

# Poverty in the Islamic Republic of Iran and ways to overcome it (for example, the province of Ardabil)

## SUMMARY

The thesis is divided into an introduction, three chapters, conclusion and list of references.

The introduction reveals the relevance of the problem, the extent of her research, the object and subject, purpose and objectives of the study, methodology, justified by the theoretical and practical importance of the work.

In the first chapter of the thesis "On the methodology of the study of poverty," deals with the standard of living and different theoretical approaches to the problem of poverty. Here we present the different definition of poverty, and provides methods for calculating its level.

In the second chapter of the thesis "The state of poverty in the province of Ardabil Iran, and its features," presents issues of the index of poverty in Iran and the situation was the province of Ardabil, and also examines the state of income distribution among urban and rural populations.

In the third chapter, entitled "Ways out of poverty in Iran," exploring the possibilities for improving the efficiency of public policies to overcome poverty, the role here of economic development, the expansion of the functions of various organizations, including NGOs, introducing poverty.

Separately considered the problem of human resource development in the province of Ardabil in order to reduce poverty and improve incomes. In the last section of this chapter discusses the various projects and programs within the state social policy.

In conclusion, made the necessary conclusions and makes appropriate recommendations.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**БЕГНАМ МУХАММЕД оглы АЗАДИ**

# Проблема бедности в Иранской Исламской Республике и пути ее преодоления (на примере провинции Ардебиль)

**5310. 01 – Мировая экономика**
**5307. 01 – Экономическая теория**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по экономике**

**Баку - 2013**